# Azərbaycanın xarici işlər naziri Nyu Yorkda görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması üzrə Müqavilənin (NSHQM) qüvvəyə minməsinin asanlaşdırılmasına dair IX konfransda çıxış edib. Bu barədə Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Nazir deyib: Biz NSHQM-in 183 ölkə tərəfindən imzalanması və 164 ölkə tərəfindən ratifikasiya edilməsi ilə müqavilədən irəli gələn öhdəliklərə qoşulmanın universallığa yaxınlaşması faktını alqışlayırıq. Eyni zamanda, beynəlxalq ictimaiyyət tərəfindən müqavilənin erkən zamanda qüvvəyə minməsi üzrə niyyətin dəfələrlə müxtəlif tədbirlərdə aydın şəkildə ifadə olunmasına baxmayaraq, NSHQM-in və dünyada nüvə təhlükəsizliyinin universallığının təmin edilməsi istiqamətində daha çox işlər görülməlidir.

Biz müqavilənin bəndlərinin tətbiq edilməsi, xüsusilə Vyanada Beynəlxalq Monitorinq Sistemi, Yerində Təftiş Elementləri və Beynəlxalq Məlumat Mərkəzinin yaradılması üzrə Hazırlıq Komissiyasının və Müvəqqəti Texniki Katibliyin bu günə qədər göstərdiyi səyləri təqdir edirik.

Əsas funksiyasına əlavə olaraq, müqavilənin icrasının yoxlanılma sisteminin dalğaötürücü və radioaktiv izotop texnologiyaları və məlumat sisteminin istifadəsinin elmi və mülki tətbiqi, eləcə də fəlakət zamanı həyəcan siqnalı daxil olmaqla elmi və mülki faydası var. NSHQM-in icrasının yoxlanılması rejimi müqaviləyə qoşulan dövlətləri zəlzələ, sunami, nüvə qəzaları və digər elmi-mülki zərurətlər üçün real vaxt rejimində dəqiq məlumatla təmin etməklə öz faydalılığını nümayiş etdirib.

Beynəlxalq Məlumat Mərkəzində toplanmış məlumatların mülki və elmi məqsədlər üçün istifadə olunduğunu nəzərə alsaq, beynəlxalq ictimaiyyətin bu imkanlardan geniş şəkildə faydalanması üçün yolların axtarılması önəmlidir.

Biz Müvəqqəti Texniki Katiblik tərəfindən müqaviləyə tərəf ölkələr üçün müvafiq təlim kurslarının və seminarların təşkilini, müqavilənin bəndlərinin effektiv şəkildə icrasını təmin etmək üçün bu ölkələrə öz imkanlarının təkmilləşdirilməsi istiqamətində göstərilən yardımı yüksək qiymətləndiririk.

Qeyd olunanların fonunda biz üç il bundan öncə İmkanların Yaradılması Proqramı çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu nəzdində yaradılmış Milli Məlumat Mərkəzinin müvafiq əsas avadanlıq və texnologiyalarla təmin edilməsi üzrə texniki yardımı təqdir edirik. Bu yardım Azərbaycanda Milli Məlumat Mərkəzinin imkanlarına əhəmiyyətli dərəcədə öz töhfəsini verib. Mərkəzin işlərini və fəaliyyətini canlandırmaq, həmçinin potensialının inkişafının təmin edilməsi üçün daha çox səy göstərilməsi lazımdır.

Azərbaycan bundan sonra da müasir texnologiyaların əldə edilməsi, texnologiyalara nəzarət üzrə mütəxəssislər üçün təlim proqramları imkanlarının genişləndirilməsi və Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması haqqında Müqavilə Təşkilatının fəaliyyətinin digər istiqamətləri üzrə milli potensialının gücləndirilməsində maraqlıdır.

* * *

Biz son onillikdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) fəaliyyətini nəzərə alaraq təşkilat daxilində davamlı islahatlar yolunun izlənilməsinin onun səmərəliliyinin artırılması üzrə davam etməkdə olan müzakirələrə dəyər qatdığına, hüquqi və təşkilati imkanlarını artırdığına, ən əhəmiyyətlisi isə çevik qərar qəbuletmə mexanizminə nail olduğuna inanırıq.

Bu fikri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 29-da Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının Nyu Yorkda keçirilən qeyri-rəsmi iclasındakı çıxışında bildirib.

Nazir qeyd edib ki, bu qeyri-rəsmi iclas təşkilat daxilindəki son məsələlər üzrə fikir mübadiləsi aparmaq və QDİƏT-in daha geniş coğrafiyada rolu ilə bağlı ümumi fikrimizi formalaşdırmaq üçün yeni bir imkan yaradır. İslahatlar prosesi, həmçinin QDİƏT Daimi Beynəlxalq Katibliyinin ideya və təşəbbüslər formalaşdıran, eləcə də müvafiq qərar və qətnamələri yerinə yetirə bilən güclü peşəkar icraçı quruma çevrilməsinə aparmalıdır.

E.Məmmədyarov deyib: "Bizim fəaliyyətlərimiz xüsusi və razılaşdırılmış prioritetlərə əsaslanmalı, təşkilati imkanlarımıza, məhdud insan və maliyyə ehtiyatlarımıza uyğun olmalıdır. QDİƏT-in təsisçi üzvlərindən biri kimi Azərbaycan onun regiondakı əhəmiyyətli rolundan xəbərdardır və bu təşkilatın səmərəliliyinin gücləndirilməsində həqiqətən maraqlıdır. Bu baxımdan biz təşkilata qlobal inkişaf gündəliyinin dəyişən reallıqlarına daha yaxşı uyğunlaşmağa və üzvlərinin ehtiyaclarına daha yaxşı cavab verməyə kömək edən QDƏT-in islahatlar prosesini dəstəkləyirik.

Daha dəqiq desək, biz QDİƏT-in bir sıra alt qurumlarının ixtisar edilməsini və onların fəaliyyətlərinin birləşdirilməsi üçün səylərin göstərilməsini təklif edirik. Həmçinin alt qurumların əsas hissəsi kimi işçi qrupların fəaliyyətini gücləndirmək də əhəmiyyətlidir.

Azərbaycan bunu nəzərə alaraq, gömrük məsələləri və elm və texnologiya üzrə işçi qruplarının ölkə əlaqələndiricisi vəzifələrini öz üzərinə götürüb. Biz bu qrupların əhəmiyyətli siyasi məsələlərin müzakirə edildiyi və bu işçi qruplar çərçivəsində əməkdaşlığın təkmilləşdirilməsi üçün yol xəritələrinin qəbul edildiyi iclaslarına evsahibliyi etdik. Azərbaycan QDİƏT-in işinə gələcəkdə də töhfə vermək məqsədilə informasiya-kommunikasiya texnologiyaları üzrə işçi qrup çərçivəsində ölkə əlaqələndiricisinin vəzifələrini könüllü şəkildə öz üzərinə götürüb. Biz İKT ilə birlikdə elmi inkişafın QDİƏT regionunda müvəffəqiyyətli əməkdaşlığın ümidverici sahələrindən biri olmasına inanırıq. Biz müvafiq sahələrdə ümumi səylərimizin təsirini şübhəsiz olaraq gücləndirə biləcək təcrübə mübadiləsi və layihə icrası üçün qənaətbəxş ehtiyatları ayıra və interaktiv işçi platformanı yarada biləcək vəziyyətdəyik.

Təşkilatın fəaliyyətinin praktiki üsullarına gəldikdə, biz onun hazırda üzləşdiyi problemlərin öhdəsindən effektiv şəkildə gəlməsi üçün QDİƏT-in maliyyə və büdcə sisteminin gücləndirilməsinin qaçılmaz şərt olmasını düşünürük".

Elmar Məmmədyarov bildirib ki, iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi QDİƏT-ə üzv dövlətlərin üzləşdiyi çoxsaylı və kompleks problemlərə adekvat və vaxtında cavab verilməsindən asılıdır. Qeyri-stabilliyin əsas mənbələrindən biri olan və iqtisadi inkişaf üçün ciddi əngəl yaradan davam edən silahlı münaqişələrin mövcudluğu tam həcmli regional əməkdaşlıq üçün əsas maneələrdən biridir. Bu məqsədlə özünün islahatlarla bağlı prinsiplərini müəyyən edərkən təşkilatımız QDİƏT regionunda mövcud olan və potensial təhdidləri nəzərdən qaçırmamalı, onlara adekvat və vaxtında cavab verməyə hazır olmalıdır. Regionda uzunmüddətli sülhün, stabilliyin və əməkdaşlığın bu münaqişələrin dövlətlərin beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı, suverenliyi və ərazi bütövlüyü əsasında həllini tələb etməsini deməyə ehtiyac yoxdur.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 29-da Nyu Yorkda İraqın xarici işlər naziri İbrahim Əl-Cəfəri ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə İbrahim Əl-Cəfəri rəsmi səfərlərin əlaqələrin inkişafına müsbət təsirindən danışıb. O, iki ölkə arasında yüksək səviyyəli qarşılıqlı səfərlərin təşkil edilməsinin vacib olduğunu qeyd edib.

Ermənistan-Azərbaycan münaqişəsinə toxunan İ.Əl-Cəfəri İraqın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini diqqətə çatdırıb.

İki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu deyən iraqlı nazir ölkəsinin terrorçuluqla mübarizə sahəsində Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu söyləyib.

Elmar Məmmədyarov tarixən Azərbaycan və İraq xalqları arasında dost münasibətlərin olduğunu xatırladıb. Nazir Bağdad ilə Bakı arasında birbaşa uçuşların fəaliyyətə başlamasının iki ölkənin əməkdaşlığına önəmli töhfə verəcəyini bildirib. O, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin beynəlxalq formatlarda, eləcə də BMT Baş Assambleyasında İraq tərəfindən dəstəklənməsinin yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Azərbaycan ilə İraq arasında əməkdaşlıq üçün geniş imkanlar olduğunu deyən Elmar Məmmədyarov iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi məqsədilə hər iki ölkənin işgüzar dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin və birgə biznes-forumların keçirilməsinin vacib olduğunu qeyd edib. Nazir Azərbaycanın xüsusilə enerji sahəsində İraq ilə əməkdaşlıqda maraqlı olduğunu deyib.

Elmar Məmmədyarov iraqlı həmkarını Azərbaycana səfərə dəvət edib. Nazir İbrahim Əl-Cəfəri dəvəti məmnuniyyətlə qəbul edib.

* * *

GUAM çərçivəsində əməkdaşlıq region dövlətləri arasında əlaqələrin inkişafında vacib rol oynayır. Təşkilat daxilində humanitar və iqtisadi sahədə əməkdaşlıq üçün əlverişli imkanlar var.

Bu fikirləri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 29-da Nyu Yorkda ukraynalı həmkarı Pavlo Klimkin ilə görüşündə deyib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə Ukraynadakı vəziyyət və Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı fikir mübadiləsi aparılıb.

E.Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar barədə məlumat verib. O, münaqişənin yalnız beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə beynəlxalq səviyyədə tanınmış sərhədlərə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət əsasında həll edilməli olduğunu qeyd edib.

Azərbaycan xarici siyasət idarəsinin rəhbəri ukraynalı həmkarını ölkəmizə səfərə dəvət edib. Dəvət məmnuniyyətlə qəbul olunub.

**AZƏRTAC**